Azərbaycan Dövlət Iqtisad Universiteti (UNEC)

Təsdiq edirəm:

“Biznes və logistika” kafedrasının
müdiri: i.e.n.dos., M.Ə.ƏLİYEV

09 sentyabr 2025-ci il

“Xarici ölkələrin iqtisadiyyatı”
İŞÇİ TƏDRIS PROQRAMI
(Sillabus)

## I. Fənn haqqında məlumat

Fənnin kodu: 00935 İFS-008

Fənnin növü: seçmə
Tədris ili: 2025/2026
Tədris semestri: payız
Fakültə: Biznes və menecment
Qrup: 910
Tədris yükü: 45 saat (mühazirə/məşğələ - 30/15)
Kredit sayı: 4 (dörd)
Kafedra: Biznes və logistika

## II. Müəllim haqqında məlumat

Fənni tədris edən müəllim: Quliyev Müşfiq, i.e.d., professor
E-mail ünvanı: mushviq.quliyev@unec.edu.az
İş telefonu: (012) 4403367

## III. Fənnin təsviri

“Xarici ölkələrin iqtisadiyyatı” fənninin tədrisinin məqsədlərini bakalavr səviyyəsində təhsil alan tələbələrdə milli iqtisadiyyatların inkişafının xüsusiyyətləri və modelləri haqqında nəzəri bilikləri mənimsəməyə yönəlmiş kompetensiyaları inkişaf etdirmək, iqtisadi modellərin hərəkətverici amillərini müəyyən etmək və təhlil etmək bacarığını formalaşdırmaqdır. Bu fənndə ayrı-ayrı ölkələrin iqtisadi inkişafı regionların və dünya iqtisadiyyatının sosial-iqtisadi prosesləri ilə qarşılıqlı əlaqədə öyrənilir.

## IV. Kursun əsas məqsədi və vəzifələri

Milli iqtisadiyyatların qlobal iqtisadi sistemə inteqrasiya proseslərinə dair dərin biliklər vermək; regionların və ölkələrin iqtisadi inkişaf modellərinin xüsusiyyətlərini, habelə milli iqtisadiyyatlar arasında qarşılıqlı əlaqə formalarını təhlil etməyi öyrətmək; dünya iqtisadi əlaqələri sistemində ayrı-ayrı ölkələrin iqtisadiyyatı, onların iqtisadi inkişafının xüsusiyyətləri haqqında biliklərin formalaşdırılması; dünyanın əsas regionlarının müasir inkişaf prosesləri və qarşılıqlı əlaqəsi haqqında təsəvvürlərin inkişaf etdirilməsi bu fənnin tədrisinin əsas məqsədlərini təşkil edir.

## V. Bacarıq və səriştələrin formalaşması

Fənnin öyrənilməsi aşağıdakı səriştələrin mənimsənilməsini təmin edir:

**Bilməlidir:**

- ayrı-ayrı ölkələrdə iqtisadi sistemlərin modellərini, dünyanın regionlarında və dünya iqtisadiyyatının sektorlarında iqtisadi inkişafın amillərini;
- sosial-iqtisadi proseslər haqqında məlumatların təhlili və şərhinin əsaslarını;
- ayrı-ayrı ölkələr arasında qarşılıqlı əlaqə və milli iqtisadi maraqların təmin edilməsi problemlərinin öyrənilməsi nəzəriyyəsi və metodologiyası.

**Bacarmalıdır:**

- ayrı-ayrı ölkələrdə, dünyanın regionlarında və dünya iqtisadiyyatının sektorlarında iqtisadi inkişaf meyllərini müəyyən etmək;
- ayrı-ayrı ölkələrdə iqtisadi inkişaf göstəriciləri üzrə iqtisadi informasiya resurslarından istifadə etmək.

**Malik olmalıdır:**

- dünya iqtisadi münasibətləri sistemində ayrı-ayrı ölkələrin iqtisadiyyatları haqqında biliklər;
- dünya iqtisadi əlaqələri sistemində xarici ölkələrin iqtisadiyyatı sahəsində problemlərin həlli üçün zəruri olan analitik məlumatların toplanması və emalı.

## VI. « Xarici ölkələrin iqtisadiyyatı » fənninin mövzuları üzrə keçirilən saatların miqdarı

« Xarici ölkələrin iqtisadiyyatı » fənni 45 saat həcmində, o cümlədən 30 saat mühazirə və 15 saat məşgələ dərsləri nəzərdə tutulmuşdur.

Kursun tematikasının strukturu 12 bölmədən ibarətdir.

Bölmə 1. Dünya iqtisadiyyatı sistemi, dünya ölkələrinin tipologiyası və milli iqtisadi modellər.

Bölmə 2. ABŞ iqtısadıyyatı və anglo-sakson modelı.

Bölmə 3. Qərbi Avropa regionu ölkələrinin iqtisadiyyatı.

Bölmə 4. Cənubi Avropa ölkələrinin iqtisadiyyatı.

Bölmə 5. Şimali Avropa (Skandinaviya) ölkələrinin iqtisadiyyatı və modeli.

Bölmə 6. Mərkəzi və Şərqı Avropa ölkələrının iqtisadi modeli.

Bölmə 7. Yaponiya iqtisadiyyatı.

Bölmə 8. Latın Amerıkası ölkələrinin iqtisadiyyatı.

Bölmə 9. Asiya ölkələrinin iqtisadiyyatı, inkişaf modeli və dünya iqtisadiyyatında rolu.

Bölmə 10. Yaxın Şərq və Afrika ölkələrinin iqtisadiyyatı.

Bölmə 11. MDB və Avrasiya İqtisadi İttifaqı (EAEU) ölkələrinin iqtisadi modeli.

Bölmə 12. Azərbaycan iqtisadiyyatının inkişaf modeli və xüsusiyyətləri.

## VII. « Xarici ölkələrin iqtisadiyyatı » fənninin tematik planı və mövzular üzrə dərs saatlarının bölgüsü

| № | Mövzunun adı | Mühazirə | Seminar |
|---|---|---|---|
| | **BÖLMƏ 1. DÜNYA İQTİSADİYYATI SİSTEMİ, DÜNYA ÖLKƏLƏRİNİN TİPOLOGİYASI VƏ MİLLİ İQTİSADİ MODELLƏR** | | |
| 1 | *Dünya iqtisadiyyatının ümumi xarakteristikası, ölkələrin qruplaşdırılması üsulları və milli iqtisadi modellər* | 2 | |
| | **BÖLMƏ 2. ABŞ İQTİSADİYYATI VƏ ANGLO-SAKSON MODELİ** | | |
| 2 | *ABŞ iqtisadi modeli və dünya iqtisadi əlaqələr sistemində rolu* | 2 | 2 |
| 3 | *Kanada, Avstraliya və Yeni Zelandiya iqtisadiyyatı* | 2 | |
| | **BÖLMƏ 3. QƏRBİ AVROPA REGİONU ÖLKƏLƏRİNİN İQTİSADİYYATI** | | |
| 4 | *Almaniya iqtisadiyyatı* | 2 | 2 |
| 5 | *Fransa iqtisadiyyatı* | 2 | |
| 6 | *Böyük Britaniya iqtisadiyyatı* | 2 | 2 |
| | **BÖLMƏ 4. CƏNUBİ AVROPA ÖLKƏLƏRİNİN İQTİSADİYYATI** | | |
| 7 | *Cənubi Avropa ölkələrinin iqtisadiyyatı və xüsusiyyətləri* | 2 | |
| | **BÖLMƏ 5. ŞİMALİ AVROPA (SKANDİNAVİYA) ÖLKƏLƏRİNİN İQTİSADİYYATI VƏ MODELİ** | | |
| 8 | *Şimali Avropa (Skandinaviya) ölkələrinin iqtisadiyyatı* | 2 | 2 |
| | **BÖLMƏ 6. MƏRKƏZİ VƏ ŞƏRQİ AVROPA ÖLKƏLƏRİNİN İQTİSADİ MODELİ** | | |
| 9 | *Mərkəzi və Şərqi Avropa ölkələrinin iqtisadi inkişafının xüsusiyyətləri* | 2 | |
| | **BÖLMƏ 7. YAPONİYA İQTİSADİYYATI** | | |
| 10 | *Yaponiyanın iqtisadi modeli* | 2 | 2 |
| | **BÖLMƏ 8. LATIN AMERİKASI ÖLKƏLƏRİNİN İQTİSADİYYATI** | | |
| 11 | *Latın Amerikası ölkələrinin iqtisadi inkişaf modeli* | 2 | |
| | **BÖLMƏ 9. ASİYA ÖLKƏLƏRİNİN İQTİSADİYYATI, İNKİŞAF MODELİ VƏ DÜNYA İQTİSADİYYATINDA ROLU** | | |
| 12 | *Çin, Hindistan və Cənub-Şərqi Asiya ölkələrinin iqtisadi modeli* | 2 | 2 |
| | **BÖLMƏ 10. YAXIN ŞƏRQ VƏ AFRİKA ÖLKƏLƏRİNİN İQTİSADİYYATI** | | |
| 13 | *Yaxın Şərq və Saharaaltı Afrika ölkələrinin iqtisadiyyatı* | 2 | |
| | **BÖLMƏ 11. MDB VƏ AVRASİYA İQTİSADİ İTTİFAQI (EAEU) ÖLKƏLƏRİNİN İQTİSADİ MODELİ** | | |
| 14 | *MDB və Avrasiya İqtisadi İttifaqı ölkələrinin iqtisadiyyatı* | 2 | 2 |
| | **BÖLMƏ 12. AZƏRBAYCAN İQTİSADİYYATININ İNKİŞAF MODELİ VƏ XÜSUSİYYƏTLƏRİ** | | |
| 15 | *Azərbaycan iqtisadiyyatının inkişaf modeli* | 2 | 1 |
| | **Cəmi** | 30 | 15 |

## VIII. «Xarici ölkələrin iqtisadiyyatı » fənninin tədris metodologiyası

Bu fənnin tədrisi prosesində mühazirələrin oxunması, müzakirələrin aparılması, komanda şəklində beynəlxalq ticarətin nəzəriyyə və praktikasını öyrənməyə kömək edən kiçik həcmli layihə işlərinin icrası, xüsusi keys nümunələrinin və beynəlxalq ticarət situasiyalarının təhlili və təqdimatların hazırlanması kimi geniş çeşiddə tədris və təlim üsullarından istifadə edilir.

Bundan əlavə tədris və təlim prosesində xarici və yerli iqtisadi ədəbiyyatlardan, Dünya Bankı, İİƏT, Avropa İttifaqı saytlarının rəsmi materialları və ÜTT hesabatlarından, habelə beynəlxalq və milli mənbələrdən (internet resurslarından) götürülmüş məqalələrin və beynəlxalq ticarət münasibətlərinin təhlilinə, müzakirəsinə və məntiqi nəticələr çıxarılmasına xüsusi diqqət ayrılacaq. Verilən biliklərin tətbiqi bacarıqlarının formalaşdırılması üçün tələbələr mövzuya müvafiq olaraq seçilmiş bazarlara, transmilli şirkətlərə aid tapşırıqları həll edəcəklər.

Hər bir yeni seminar dərsləri öncəsi tələbələr müəyyən olunmuş mətnləri və onlara təqdim edilmiş (tapşırılmış) digər qiraət materialları ilə tanış olmalıdırlar.

## IX. Fənnin mühazirə mətnləri ilə tanışlıq

Fənnin bütün mövzuları üzrə mühazirə mətnləri, müzakirə sualları və tapşırıqlar, habelə müxtəlif növ məşğələ materialları elektron formatda Universitetin saytında universitetin veb saytındakı tələbə kabinetində yerləşdirilir.

Ara və yekun imtahanlarının suallarının siyahısı universitetin ümumi qaydalarına və müəyyən olunan qrafiklərdə fənnin sillabusuna daxil edilir.

## X. «Xarici ölkələrin iqtisadiyyatı » fənninin tədrisində istifadə ediləcək tədris materiallarının siyahısı:

1. **Sillabus;**
2. **Mühazirə mətnləri;**
3. **Təqdimat;**
4. **Seminar dərsi üçün əlavə materiallar;**
5. **Digər bölməsi: fənn üzrə əsas dərslik,əlavə dərslik,internet resursları, mövzular üzrə əlavə resurslar.**

## XI. Tövsiyyə olunan əsas ədəbiyyat:

### Əsas ədəbiyyat

1. Comparative Economic Systems: Capitalism and Socialism in the 21st Century.An ECI Teaching Module on Social and Economic Issues, Global Development Policy Center, Boston University, 2021
2. Comparative Economics in a Transforming World Economy, third edition (Mit Press) 3rd ed. Edition, by J. Barkley Rosser Jr. , Marina V. Rosser, 2018
3. Asian Economic Systems, by Steven Rosefielde (University of North Carolina at Chapel Hill, USA), 2013
4. Robert.C.Allen, Dünya iqtisadiyyatı tarixi, Teas Press **nəşriyyatı, 248 səh.**
5. Роузфилд, Стивен. Сравнительная экономика стран мира. Культура, богатство и власть в XXI веке, РОССПЭН, Москва, 2004 г.
6. Бузгалин А.В., Колганов А.И. Экономическая компаративистика: Сравнительный анализ экономических систем: Учебник// Инфра-М, 2011 г.

### Əlavə ədəbiyyat

7. Cammett, M. C., Waterbury, J., Richards, A., & Diwan, I. (2015). A Political Economy of the Middle East: Vol. Fourth edition. Routledge.
8. Quentin Wodon, Andrea Liverani, George Joseph, & Nathalie Bougnoux. (2014). Climate Change and Migration : Evidence from the Middle East and North Africa. The World Bank.
9. Mason, R. (2014). The International Politics of the Arab Spring : Popular Unrest and Foreign Policy: Vol. First edition. Palgrave Macmillan.
10. Под редакцией А. Д. Воскресенского - Восток и политика: Политические системы, политические культуры, политические процессы - Издательство "Аспект Пресс" - 2015 - 624с. - ISBN: 978-5-7567-0762-5 - Текст электронный // ЭБС ЛАНЬ - URL: https://e.lanbook.com/book/68675
11. Зубарева Т.С. Сравнительный анализ экономических систем, учебник в электронной форме (http://ecsocman.hse.ru/data/024/516/1219/ux5eebnik.doc
12. Западноевропейские страны: особенности социально-экономических моделей. Ответственный редактор Гутник В.П., «Наука», Москва, 2002 г.
13. Экономика США. Под редакцией В. Б. Супяна. М., «Питер», 2008 г.
14. Бок Зи Коу, Экономика Японии. Какая она? М. Изд-во: Экономика, 2002 г.
15. Экономика Японии : учеб. пособие / Ин-т востоковедения РАН ; Ассоц. японоведов ; отв. ред. И.П. Лебедева, И.Л. Тимонина. - М. : Вост. лит., 2008.
16. Дружинин Н.Л. Институциональные факторы развития послевоенной экономической системы Японии. - СПб. : Изд-во С.-Петерб. ун-та, 2007. - 194 с.
17. Зарицкий Б.Е., Экономика ФРГ, «Магистр», Москва, 2009 г.
18. Капица, Л. М. Индикаторы мирового развития. Второе издание. Москва, Изд-во «МГИМО-Университет», 2008

### Məlumat və sorgu kitabları

19. Страны и регионы мира. Экономико-политический справочник.
20. Страны и регионы. Статистический справочник Всемирного банка.

### İnternet resursları

21. Human Development Report. UNDP
22. World Development Report . The World Bank.
23. Trade and Developemnt Report. UNCTAD
24. The Least Developed Countries Report. UNCTAD

25. İMF Data

## XII. Seminar-məşğələlər: hazırlıq və qiymətləndirmə

Seminar-məşğələ dərslərində tələbə öz fikirlərini məntiqi ardıcıllıqla ifadə və izah etməyi, habelə arqumentlərlə əsaslandırmağı bacarmalıdır. Buna nail olmaq üçün tələbə:

1) Seminar məşğələsinin hər bir mövzusu üzrə müzakirəyə çıxarılan suallarla diqqətlə tanış olmalı;
2) Müvafiq mühazirə materiallarını diqqətlə öyrənməli;
3) Mövzu üzrə tövsiyə edilən ədəbiyyatı oxumalı və öyrənməli;
4) Seminar məşğələsində müzakirəyə çıxarılan hər bir sual üzrə qısa çıxıs hazırlamalı;
5) Mövzu üzrə verilən praktik tapşırıqlar və məsələləri yerinə yetirməklə praktik bacarıqlara yiyələnməlidir.

Tələbə semestr ərzində 100 bal toplamalıdır. 20 bal seminar (məşğələ) dərsində toplanır. Tələbə seminar balını gündəlik olaraq dərsdə aktivlik göstərməklə toplayır. Beləliklə tələbə dərslər zamanı ən azı 4 dəfə qiymət almalıdır ki, cəmi 20 bal toplamış olsun. Tələbənin dərsə davamiyyəti qeydə alınır.

Seminarlar frontal sorgu, yazılı tapşırıqlar, testlər, keyslər və tələbələrin hazırladıqları prezentasiyalar üzrə keçirilir.

## XII. <u>Sərbəst işlər</u>(Qrup işi): nəzərdə tutulmayıb.

Fənn üzrə qiymətləndirmə

| | | |
|---|---|---|
| Seminar (məşğələ) dərslərinin nəticələrinə görə | 20 bal | 20 % |
| Ara imtahan | 30 bal | 30 % |
| Yekun imtahan | 50 bal | 50% |
| Semestr nəticəsinə görə | 100 bal | 100% |

Semestr nəticəsinə görə qiymətləndirmə (imtahan və imtahana gədər toplanan ballar əsasında)

| | | |
|---|---|---|
| 91-100 bal | əla | A |
| 81-90 bal | çox yaxşı | B |
| 71-80 bal | yaxşı | C |
| 61-70 bal | kafi | D |
| 51-60 bal | qənaətbəxş | E |
| 51 baldan aşağı | qeyri-kafi | F |

**Tərtib etdi :**